İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi

# Fermer təsərrüfatlarında Alternativ maliyyələşməyə ehtiyacın qiymətləndirilməsi üzrə aparılmış sorğunun

# HESABATI

Bakı - 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə tərəfdaşlıq əsasında icra etdiyi **“Kəndli fermer təsərrüfatlarında uçotun təşkili və alternativ maliyyə mənbələrinə çixiş imkanlarının artırılmasına dəstək”** layihəsi çərçivəsində Gəncə və Lənkəran şəhərlərində keçirilmiş **“Aqrar sektorda uçotun təşkili və alternativ maliyyələşmə”** mövzusundakı treyninq-debatlarda “Fermer təsərrüfatlarında Alternativ maliyyələşməyə ehtiyacın qiymətləndirilməsi” üzrə iştirakçılar arasında aparılmış sorğunun və uçotun təşkili ilə bağlı iştirakçıların onların rəylərinin təhlil olunması ilə hazırlanmış sənədin

## T Ə H L İ L   H İ S S Ə S İ

Təlimlərdə Lənkəran və Gəncə regionlarının hər birində orta hesabla 30 nəfər olmaqla ümumilikdə 60 nəfər nümayəndə iştirak etmişdir. Lənkəran regionundan iştirak etmiş 31 nəfərdən 21-i, Gəncə regionundan isə iştirak etmiş 29 nəfərdən 21-i, ümumilikdə isə 42 nəfər sorğunu cavablandırmışdırlar. Sorğuda iştirak etmiş 42 nəfərin suallara cavabı aşağıdakı kimi olmuşdur:

1. **“Cinsinizi qeyd edin” sualı ilə bağlı nəticə aşağıdakı kimi olmuşdur:**
   Kişi - 37 nəfər
   Qadın - 5 nəfər



**2. "Yaşınızı qeyd edin sualı" ilə bağlı nəticə aşağıdakı kimi olmuşdur:**

18-24 arası - 1 nəfər
25-34 arası - 4 nəfər
35-44 arası - 7 nəfər
45-54 arası - 12 nəfər
55 yaşdan yuxarı - 18 nəfər




**3. "Məşğul olduğunuz kənd təsərrüfatı sahəsini qeyd edin" sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

Yalnız bitkiçilik - 27 nəfər
Yalnız heyvandarlıq - 7 nəfər
Bitkiçilik və heyvandarlıq - 6 nəfər
Heyvandarlıq və quşçuluq – 1 nəfər
Arıçılıq – 1 nəfər



**4. “Müəssisənizin təşkilati-hüquqi forması nədir” sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) - 5 nəfər
Açıq Səhmdar Cəmiyyəti (ASC) - 2 nəfər
Fərdi fermer təsərrüfatı (VÖEN-li fiziki şəxs) - 5 nəfər
Fərdi fermer (ev təsərrüfatı) - 24 nəfər




**5. “Müəssisənizin dövriyyəsi aşağıdakılardan hansına uyğun gəlir” sualının nəticəsi aşağıdakı kimi olmuş?**

1 - 200 0000 AZN (kiçik müəssisə) - 29 nəfər
200 000 – 1250 000AZN (orta müəssisə) - 2 nəfər
1250 000 AZN və  ondan çox (iri müəssisə) - 1 nəfər
Heç bir məbləğ qeyd etməyib – 10 nəfər



**6. Müəssisədə tuduğunuz vəzifənizi göstərin:**

Rəhbər - 23 nəfər

Aqronom - 10 nəfər

Mühasib - 3 nəfər

Aparıcı mütəxəssis - 3 nəfər

Elmi işçi – 1 nəfər

Qeyd etməyib – 2 nəfər




**7. Təsərrüfatınızda hansı sahəyə daha çox vəsait tələb olunur ?**

Heyvanların sayının artırılması üçün - 14 nəfər

Bitki əkmək üçün - 28 nəfər

Texnika üçün - 7 nəfər

Tikili üçün - 1 nəfər



**8. "Təsərrüfatınızı inkişaf etdirmək üçün nə qədər vəsait lazımdır" sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

500-3000 AZN - 11 nəfər
3000-10 000 AZN - 11 nəfər
10 000-100 000 AZN - 17 nəfər
100 000 – 1 000 000 AZN - 2 nəfər
1000 000 AZN - dən çox (AZN) - 1 nəfər




**9. "Faizli bankdan istifadə edirsinizmi" sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

Bəli - 30 nəfər
Xeyir - 10 nəfər
Neytral - 2 nəfər



**10. "Kreditin illik faizi nə qədər olmuşdur" sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

25% - dən yüksək - 16 nəfər
20-25% - 6 nəfər
7-20% - 1 nəfər
7%-ə qədər – 7 nəfər
Neytral - 11 nəfər




**11. "Götürdyünüz kreditlə bağlı hansı problemlərlə qarşılaşmısınız" sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

| Yüksək faiz dərəcəsi | Gözlənilən gəlirlərin aşağı olması | Problem olmayıb | Neytral |
|---|---|---|---|
| 26 nəfər | 3 nəfər | 2 nəfər | 11 nəfər |



**12. “Faizsiz (İslam) maliyyələşmə deyəndə nə başa düşürsünüz” sualının nəticəsi aşağıdak kimi olmuşdur:**

Pulun heç bir faiz dərəcəsi qoyulmadan verilməsi - 24 nəfər;

Şərikli sərmayə qoyaraq sonda gəlirdən pay ortaqlığı əsasında vəsaitin verilməsi - 16 nəfər;

Borc verilən puldan heç bir gəlirin gözlənilməməsi - 1 nəfər;

Neytral - 1 nəfər




**13. “Ortaqlıq prinsipləri əsasında öz təsərrüfatınıza maliyyə cəlb etmək istərdinizmi” sualının nəticəsi aşağıdakı kimi olmuşdur:**

Bəli - 30 nəfər

Xeyr - 12 nəfər



**14.1. “Maliyyə cəlbi ilə əlaqədar seçimlə qarşılaşsaydınız aşağıdakılardan hansına üstünlük verərdiniz” sualın nəticəsi aşağıdakı kimi olmuşdur:**

Faizli (ənənəvi) bankların təklif etdiyi kreditlər - 3 nəfər

Faizsiz (ortaqlıq) prinsipləri əsasında işləyən bankların verdiyi vəsaitlər - 37 nəfər




**14.2. Bu bölmədə yuxarıdakı sualın cavabının səbəbini açıqlamaqla bağlı aşağıdakı nəticələr əldə olunmuşdur:**

İqtisadi cəhətdən daha səmərəlidir - 21 nəfər

Daha çox gəlir əldə etmək imkanı var - 10 nəfər

Dini inancıma uyğundur - 4 nəfər

Şərtlər asandır - 3 nəfər

Neytral – 4 nəfər



Yuxarıda göstərilən tədqiqatdan aşağıdakı nəticəyə gəlmək olar. Belə ki, 1-ci sualda sorğuya cəlb olunanların gender xüsusiyyətini öyrənmək qarşıya məqsəd qoyulmuşdur. Cavablardan da göründüyü kimi, ənənəvi olaraq regionlarda fermer təsərrüfatlarına rəhbərlik edənlərin 88%-ni kişilər, 12%-ni isə qadınlar təşkil etmişdir.

2-ci sualın cavablarından da göründüyü kimi iştirakçıların böyük əksəriyyəti 25-55 yaşlar arasında olmuşdur.

Sorğunun 3-cü sualını cavablandıranlardan göründüyü kimi, 42 nəfərdən 33-ü bitkiçiliklə, qalanları isə heyvandarlıqla məşğul olur. 4-cü sualın cavabına əsasən əksəriyyətin yəni, 24 nəfərin fərdi fermer olduğu ortaya çıxır. Bununla yanaşı 5-ci sualın cavabından bəlli olur ki, bu təsərrüfat subyektlərinin çoxluğu yəni, 29-u kiçik sahibkarlığa aiddirlər. Sorğu iştirakçılarının müəyyənləşdirilməsi ilə bağlı olan bu hissənin davamı olan 6-cı sualın cavabından da göründüyü kimi iştirakçıların 42-dən 23-ü rəhbər vəzifəli şəxslərdir.

Sorğunun əməliyyatla bağlı olan hissəsində 7-ci sualın cavabından da göründüyü kimi iştirak edənlərin böyük əksəriyyəti heyvandarlıq və bitkiçilik üzrə maliyyə vəsaitinin əldə olunmasında maraqlıdırlar. Onlara bu sahələrini inkişaf etdirməyə tələb olunan vəsaitin miqdarını aydınlaşdıran 8-ci sualı verdikdə, böyük əksəriyyət yəni, 39 nəfər daha çox mikromaliyyələşməyə - 500 – 100.000 manat maraq göstərdiklərini bildirmişdilər.

Faizli bankların xidmətindən neçə subyektin istifadə etdiyini müəyyənləşdirmək üçün verilən 9-cu sualı 30 nəfər bu tip qurumların məhsullarından yararlandıqlarını bildirmişdilər. Bu vəsaitlərin cəlbi zamanı tələb olunan faiz dərəcələrinə baxıldıqda sorğuda iştirak edənlərdən 22-nin bunun 20-30% arasında dəyişdiyini bildirmişdi.

Faizli bankdan götürülən kreditlə bağlı mövcud problemləri öyrənmək məqsədini daşıyan 11-ci sualı cavablandıranlardan 26-sı verilən kreditlərin faizlərinin yüksək olduğunu bildirmişdilər. Bu da sözügedən problemin kəndli fermerlər üçün aktual olduğunu önə çəkir.

Sorğunun faizsiz banka aid olan 12-ci sualın cavblarından görünür ki, iştirakçıların əksəriyyəti bunu faizsiz bir borc olduğunu düşünür. Lakin, 16 nəfərin cavabı onların faizsiz maliyyələşmənin mahiyyətini anladıqlarını göstərir. 13-cü sual faizsiz maliyyələşməyə ehtiyacın öyrənilməsi məqsədini daşıyır. Buradan da aydın görünür ki, 42 iştirakçıdan 37-si bu tip maliyyələşmə metodundan istifadə etmək istərdi. Əlaqəli olaraq da növbəti 14.1.-də göstərilən sualda seçim qarşısında qalsaydınız hansı maliyyə sistemini seçərdiniz? sualının cavablarından görünür ki, onların böyük əksəriyyəti yenə də faizsiz vəsait cəlbinin tərəfdarıdırlar. Sonuncu 14.2. bu istəyin hansı prinsiplərdən qaynaqlandığını aşkarlamaq üçün qoyulmuşdur. Bu sualı cavablandıranların böyük əksəriyyəti də məhz iqtisadi və daha çox gəlir əldə etmək marağından faizsiz maliyyələşməyə üstünlük verdiklərini bildirmişdilər.

## T Ö V S İ Y Ə L Ə R

**1. Kənd təsərrüfatında innovativ layihələrin maliyyələşdirilməsi alətlərinin inkişafı**

Məlum olduğu kimi iqtisadi fəaliyyətin ən çətin maliyyə cəlb olunan formalarından biri yeni yaradılan müəssisələr və startaplardır. Xüsusən də kənd yerlərində gənclərin öz işlərini qurmaları və onların regionlardan paytaxta iş axtarmaq üçün yaranan axınlarının qarşısının alınması məqsədilə sərmayəçilərin və startapların əlaqələndirilməsinə yönəlmiş maliyyə üsullarının tətbiqi genişləndirilməlidir.

Bunun üçün Qərbdə Vençur kapitalı kimi tanınan, Şərqdə isə bunun qarşılığı olan Mudarəbə maliyyələşmə üsulunun tətbiqi üçün investisiya mühiti formalaşdırılmalıdır.

Mudarəbə - bir tərəfdən sərmayənin (maliyyə vəsaitinin) digər tərəfdən isə əməyin (innovasiya, ixtira, xüsusi layihələr, işgüzarlıq bacarığı) iştirak etdiyi ortaqlıq növüdür. Bu razılaşmaya əsasən əmək sahibi olan şəxs sərmayəçi tərəfindən ona verilən maliyyə vəsaitini işlətmək və idarə etmək hüququna malik olur.

**2. Ortaqlıq prinsiplərinə söykənən maliyyə alətinin kənd təsərrüfatında tətbiqi**

Ortaqlıq maliyyələşməsi mahiyyət etibarilə birgə, yəni ortaqlıq prinsiplərinə əsaslanan şirkətin qurulması, biznes fəaliyyətinin həyata keçirilməsi və hər hansı bir kommersiya layihəsinin icrasını ehtiva edir.

Azərbaycanda bir sıra banklar tərəfindən bu tip maliyyələşmənin tətbiqi formaları öyrənilmiş və onun ölkəmizdə həyata keçirilməsi üçün münbit zəminin yaradılması gözlənilməkdədir. Bu maliyyələşmə metodu Bankların yüksək faiz, ağır girov şərtləri tətbiq etdikləri bir vaxtda kənd təsərrüfatının maliyyələşməsi üçün effektiv bir alətdir. Çünki, bu metod hər iki tərəf üçün uduş və ya eyni zamanda zərər prinsiplərinə dayanır.

Bunun üçün ilk növbədə bank sektorunda bu alətin təşviq olunaraq genişlənməsi üçün işlərin aparılmasını təklif edirik.

İkinci, yol kimi isə Azərbaycan Respublikasının mövcud Qanunvericiliyi əsasında sərmayəçi və sahibkarların birbaşa birləşməsini ehtiva edən müqavilə formalarının hazırlanaraq maliyyə xidmətlərinin göstərilməsidir. Bu ikinci yol reallaşma baxımından həm daha asan həm də kəndli-fermer təsərrüfatlarına kiçik məbləğdə maliyyə vəsaitlərinin cəlbi üçün sərfəli olduğundan bunun tətbiqini məqsədəuyğun hesab edirik.

**3. Azalan-ortaqlıq prinsipinə əsaslanan maliyyələşmə**

Azərbaycan reallığında sahibkarlıq subyektlərində ortaqlıq və şərikli biznesdə konfliktlərə daha çox rast gəlindiyi hamıya məlumdur. Bu baxımdan kənd təsərrüfatı sektorunda ortaqlığın başqa bir növü olan Azalan-ortaqlıq maliyyə alətinin tətbiqini daha məqsədəmüvafiq hesab edirik.

Bu alət Ortaqlıq prinsipləri kimi işləsə də tətbiq formasına görə ondan fərqlənir. Belə ki, biznes tərəfdaşları öz aralarında qarşılıqlı razılaşma əsasında sərmayəçinin tədricən sahibkarın xeyrinə azalan ortaqlıq normasına uyğun yaradılmış ortaq işdən çıxmasını nəzərdə tutur.

Bu da kəndliyə imkan verir ki, maliyyələşmə üçün ortaqlığa cəlb etdiyi investordan (həmçinin, şərikdən) bir müddət sonra ayrılaraq mövcud mülkiyyətə təkbaşına sahiblik etsin.

**4. Müştərək sığorta alətinin tətbiqi**

Bildiyimiz kimi kənd təsərrüfatı sektoru təbii proseslərlərin dəyişkənliyindən daha çox asılı olduğundan sığorta şirkətləri üçün yüksək riskli sahə hesab edilir. Bu baxımdan da Azərbaycanda fəaliyyət göstərən Sığorta şirkətləri kəndli-fermer təsərrüfatlarında sığortalamaların həyata keçirilməsində maraqlı olmurlar. Lakin, Azərbaycan hökuməti kənd təsərrüfatını ölkənin strateji və iqtisadi təhlükəsizliyini təmin edən bir sektor oludğunu dərk edərək bu sahədə sığortalanmanın inkişafında daha çox maraqlıdır.

Bu baxımdan ölkmizdə dünyanın əksər ölkələrində tətbiq olunan Müştərək (əməkdaşlıq) sığorta alətinin tətbiqini irəli sürürük.

Qeyd edək ki, Ənənəvi sığorta riskin ötürülməsinə, əməkdaşlıq sığortası isə risklərin bölüşdürülməsinə əsaslanan sığorta münasibətləri sistemidir.

Bunun üçün ölkədə qəbul olunmuş Azərbaycan Respublikasında "Maliyyə xidmətlərinin inkişafına dair" Strateji Yol xəritəsində müştərək sığortanın inkişafı ilə bağlı vəzifələrin icrasını sürətləndirmək mühüm məsələlərdən biridir.